# 525-ci qəzet

9 avqust 2012-ci il, cümə axşamı №142 (3698). Qiymәti 20 qәpik

www.525.az


# Azərbaycan və Ermənistan musiqiçiləri Aland adalarında birgə konsert verəcək

**ŞAHİN RZAYEV:** "MƏQSƏDİMİZ XALQ MUSİQİLƏRİMİZİ VƏ MİLLİ ALƏTLƏRİMİZİ TƏBLİĞ ETMƏKDİR"

**EMİN ƏFRASİYAB:** "ƏVVƏLCƏ DƏVƏTDƏN İMTİNA ETSƏM DƏ, SONRADAN ERMƏNİLƏRİN ORADA TARI ÖZ ALƏTLƏRİ KİMİ TƏQDİM EDƏCƏKLƏRİNİ EŞİDİB GETMƏYƏ RAZILAŞDIM"

Ermənistan kütləvi informasiya vasitələri Aland adalarında Azərbaycan və Ermənistan musiqiçilərinin birgə konsert proqramı ilə çıxış edəcəyi barədə məlumat yayıblar. APA-nın məlumatına görə, "Aykakan jamanak" qəzeti Azərbaycan, Ermənistan və Aland adalarından olan 13 gənc musiqiçinin Marienxamnda təcrübə mübadiləsi apardığını, master-klasslar təşkil etdiyini yazıb. Tədbir Aland münaqişəsinin qurbanlarının xatirəsini yad etmək məqsədi daşıyır. Sülh İnstitutunun təşkilatçılığı ilə keçirilən konsertlə "Dünyanın adaları" festivalına start verilmiş olacaq. Qəzet Azərbaycan və Ermənistandan olan musiqiçilərin eyni səhnəni bölüşdürəcəyini iddia edib və Azərbaycan tərəfdən bu tədbirə fortepiano ifaçısı, cazmen Emin Əfrasiyabın, İsgəndər Ələsgərovun (tryumor), Pərviz Məmmədovun (bas-gitara), Malik Mansurovun (tar, saz), Şirzad Fətəliyevin (balaban) və Nazim Kərimovun iştirak etdiyini yazıb.



APA-nın araşdırmaları nəticəsində məlum olub ki, konsertin təşkilatçısı olan Aland adalarındakı Musiqi İnstitutudur. Konsertdə Azərbaycan musiqiçilərinin iştirakını təmin etmək üçün həmin institut tərəfindən Böyük Britaniyanın Müharibə və Sülh Araşdırmaları İnstitutunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Şahin Rzayevə dəvət göndərilib. Şahin Rzayev isə konsertdə iştirak təklifi ilə cazmen Emin Əfrasiyaba müraciət edib.

Ş. Rzayev APA-ya açıqlamasında bildirib ki, Aland adalarındakı Musiqi İnstitutu hər il Xirosimanın bombardman edildiyi gün konsert təşkil edir. Konsertə dünyanın münaqişəli vəziyyətdə olan ölkələrindən müxtəlif peşə sahibləri dəvət edilir: "Hər il ya jurnalistləri, ya da musiqiçiləri dəvət edirlər. Bu il isə konsertə İsveç, Azərbaycan və Ermənistandan musiqiçilər dəvət ediblər. Konsertin keçirilməsində məqsəd hər bir xalqın öz mədəniyyətini təbliğ etməsidir. Bizim tərəfdən isə Emin Əfrasiyab başda olmaqla 5 nəfər musiqiçi dəvət edilib və onlar Azərbaycan musiqisini və mədəniyyətini təbliğ edəcəklər. Ən mühümü odur ki, burada Azərbaycanın milli musiqi alətləri, balaban, zurna, ud, tar ifa ediləcək. Məqsədimiz odur ki, "Sarı gəlin", "Gözəlim sənsən", "Evləri var xana-xana" kimi xalq musiqilərimizi təbliğ edək, həmçinin onları caz tərtibatında, avropalıların başa düşdüyü dilə təbliğ edək".

Şahin Rzayev deyib ki, bu, ermənilərlə birgə konsert deyil: "Ermənilər yazır ki, biz onlarla birgə konsert verəcəyik, bu belə deyil, bizim ayrı proqramımız var. Ayın 10-da baş tutacaq konsertdə əvvəl erməni, isveçli və fin musiqiçilər, sonra isə Azərbaycan musiqiçiləri çıxış edəcək. Konsertdə belədir ki, əvvəl zəif ifaçılar, sonda güclülər çıxış edir. Bizim musiqiçilərin səviyyəsi ermənilərinkindən qat-qat yüksək olduğuna görə, təşkilatçılar bizi sonda təqdim edib səhnəyə çağıracaq".

Cazmen Emin Əfrasiyab isə APA-ya bildirib ki, əvvəlcə bu dəvətdən imtina edib: "Amma sonra öyrəndim ki, Ermənistan tərəfi konsertdə öz qədim alətləri ilə çıxış edəcəklərini bəyan ediblər və bu alətin tar olduğunu bildiriblər. Mən buna dözə bilmədim və fikirləşdim ki, onların cavablarını vermək, tarın Azərbaycana aid olduğunu göstərmək lazımdır. Mən tar ifaçısı Malik Mansurov, balaban ifaçısı Şirzad Fətəliyev və digər musiqiçilərlə bura gəldim ki konsertdə iştirak edək və bu alətlərin kimə məxsus olduğunu sübut edək".

Emin Əfrasiyab deyib ki, konsert avqustun 10-da baş tutacaq. Azərbaycan musiqiçiləri konsertdə "Sarı gəlin": "Gözəlim sənsən", "Evləri var xana-xana" mahnılarını ifa edəcək, tarda "Segah" və digər muğamları səsləndirəcəklər.

Cazmen bildirib ki, konsertdən əvvəl orada keçirilən forumda Azərbaycanın musiqi alətləri haqqında təbliğat aparılıb: "Balaban, tar, zurna, tütək və udu nümayiş etdirdik və onların Azərbaycan xalqına məxsus olduğunu bəyan etdik. Konsertə hələ bir-iki gün qalıb. Hansısa səbəbdən erməni tarzənin əli sınıb və o konsertdə ifa edə bilməyəcək".

## Xanlar Vəliyev: "Bəzi hallarda orduda "dedovşina" faktları ortaya çıxır"

"SƏBƏBLƏRİNDƏN ASILI OLMAYARAQ, HƏR BİR ƏSGƏR ÖLÜMÜ BARƏDƏ CİNAYƏT İŞİ AÇILIR"



"Ölümün səbəblərindən asılı olmayaraq, hətta əsgər durduğu yerdə vəfat edirsə belə, hər bir fakt üzrə cinayət işi açılır. Səbəblər ciddi şəkildə araşdırılır, hər bir fakt üzrə qanuni tədbirlər görülür". APA-nın xəbərinə görə, bunu Azərbaycanın hərbi prokuroru Xanlar Vəliyev jurnalistlərə açıqlamasında deyib: "Sadəcə olaraq, biz hər bir fakt barədə ictimaiyyətə məlumat vermirik, buna heç ehtiyac da görmürük".

Orduda "dedovşina" faktlarının olması barədə suala cavabında X. Vəliyev təəssüflə qeyd edib ki, bəzən belə faktlar ortaya çıxır: "Bunun səbəbi bəzi hallarda gərgin psixoloji vəziyyətlə əlaqədar olur, bəzən isə heç nədən, bir kəlmə söz üstündə müəyyən hadisə baş verir". Hərbi prokuror deyib ki, hərbi kontingentdə baş verən cinayətlərin sayının artması barədə yayılan məlumatların heç bir əsası yoxdur: "İldən ilə hərbi kontingentdə törədilən cinayətlərin sayı azalır. Məsələn, bu ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə bu rəqəm 10 faizdən artıq azalıb".

## Havada mühüm dəyişiklik gözlənilmir

Yaxın 2 gündə hava şəraitində mühüm dəyişiklik gözlənilmir, hava əsasən yağmursuz keçəcək, mülayim şimal küləyi üstünlük təşkil edəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən az buludlu, yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 24-26, gündüz 36-38 dərəcə isti təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 26-27, Buzovna, Mərdəkan, Şüvəlanda 27-28, Türkan, Hövsan, Şıx, Sahildə 29-30 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında bu gün hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir, lakin axşam və gecə bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 21-26, gündüz 35-40, dağlarda gecə 13-18, gündüz 25-30 dərəcə isti olacaq.

## Gürcüstanda azərbaycanlı nazir müavini təyin edilib

Gürcüstanda azərbaycanlı nazir müavini təyin olunub. APA-nın Gürcüstan bürosunun məlumatına görə, dünən Kvemo-Kartli (Borçalı) bölgə qubernatorunun müavini Hüseyn Yusif oğlu Yusubov Gürcüstanın energetika nazirinin müavini vəzifəsinə təyin edilib. Bu barədə məlumatı yeni təyin edilən nazir müavininin özü bildirib.

Hüseyn Yusubov 1964-cü ilin aprel ayında Borçalının Böyük Muğanlı kəndində ziyalı ailəsində anadan olub. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib. İxtisasca alim-zootexnikdir. Bir müddət ixtisası üzrə çalışdıqdan sonra Kürdlər kənd sovetinin sədri, sonra Marneuli rayon bələdiyyəsinin sədri vəzifələrinə seçilib. Hüseyn Yusubov nazir müavini təyin olunmamışdan əvvəl azərbaycanlıların kompakt yaşadığı Kvemo-Kartli (Borçalı) bölgə qubernatorunun müavini vəzifəsində işləyib. O, Borçalıda hansı vəzifədə işləməsindən asılı olmayaraq, Gürcüstanda yaşayan soydaşlarımızı narahat edən problemlərin həllinə çalışıb. Hüseyn Yusubov eyni zamanda Gürcüstan Azərbaycanlıları Konqresinin sədri, Gürcüstan Beynəlxalq Əlaqələr və Gürcüstan Biznes və Hüquq universitetlərinin Fəxri Doktorudur.

Ailəlidir. İki oğlu var. Hər ikisi ali məktəb tələbəsidir.

Qeyd edək ki, Gürcüstanın baş naziri Vano Merabişvili bu gün Hüseyn Yusubovu qəbul edib. Söhbət zamanı baş nazir azərbaycanlı şəxsin nazir müavini vəzifəsinə təyin edilməsini Gürcüstanda gedən demokratiyanın müsbət nəticəsi hesab etdiyini, eyni zamanda azərbaycanlılara olan diqqət kimi Gürcüstan dövlətçiliyi tarixində böyük əhəmiyyət daşıdığını bildirib.

Bu gün Gürcüstan Energetika naziri Aleksandr Xetaquri də yeni təyin olunan azərbaycanlı nazir müavini Hüseyn Yusubovu Energetika Nazirliyinin əməkdaşlarına təqdim edib.

## Rusiyalı diplomat Qarabağdan danışdı

Rusiya 2012-2013-cü illərdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində irəliləyiş olacağına ümid edir. APA-nın məlumatına görə, bu barədə "Qolos Rossii"yə müsahibəsində Rusiyanın xarici işlər nazirinin müavini Qriqori Karasin bildirib.

"Bu, öz kökləri, tarixi olan olduqca çətin, mürəkkəb mövzudur. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində səylər ATƏT-in Minsk Qrupunda cəmləşdirilməlidir. Ermənistan və Azərbaycan Rusiyanın MDB çərçivəsində yaxın tərəfdaşlarıdır. Biz həm İrəvan, həm Bakı ilə münasibətləri yüksək səviyyədə qiymətləndiririk və həqiqətən də hər iki tərəfin Dağlıq Qarabağ məsələsində mövqelərinin yaxınlaşdırılması üçün mümkün olanı edirik".

## Ermənilər növbəti dəfə atəşkəsi pozublar

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndindən, işğal olunmuş Ağdam rayonunun Şıxlar və Kəngərli kəndləri yaxınlığından, Goranboy və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

## Əsgərimiz özünü güllələdi

Azərbaycan ordusu daha bir əsgərini itirib. APA-nın məlumatına görə, hadisə cəbhə bölgəsində qeydə alınıb. Milli Ordunun əsgəri, 18 yaşlı Murad Qurban oğlu Ağakərimli aldığı güllə yarasından dünyasını dəyişib. Onun tabeliyindəki silahdan özünə açdığı atəş nəticəsində öldüyü bildirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən faktı təsdiqləyiblər. Baş vermiş hadisə ilə bağlı araşdırma aparılır.

Qeyd edək ki, M. Ağakərimli bu ilin aprel ayında Bakının Xətai rayonundan həqiqi hərbi xidmətə çağırılıb.

## Bakıda beş metrostansiya bağlanır

Bakı Metropoliteni "20 Yanvar-Dərnəgül" istiqamətində qatarların hərəkətinin müvəqqəti dayandırılması haqqında əlavə məlumat yayıb. APA-nın məlumatına görə, məlumatda bildirilir ki, Bakı Metropoliteninin "20 Yanvar-Dərnəgül" sahəsi avqust ayının 9-da saat 22:00-dan etibarən avqustun 13-ü saat 06:00-a qədər müvəqqəti bağlanacaq. Bu müddətdə qeyd olunan sahədə qatarların hərəkəti dayandırılacaq. "20 Yanvar", "Memar Əcəmi", "Nəsimi", "Azadlıq prospekti" və "Dərnəgül" stansiyaları həmin müddətdə sərnişinlərə xidmət göstərməyəcək. Sərnişinlər metronun "Həzi Aslanov-İçərişəhər" və "Həzi Aslanov-İnşaatçılar" istiqamətində və geriyə olmaqla, metropolitenin xidmətindən istifadə edə biləcəklər. Sərnişinlərdən qeyd olunan müddətlərdə digər ictimai nəqliyyat vasitələrindən istifadə etmək xahiş olunub.



Bakı Metropolitenindən bildiriblər ki, "20 Yanvar-Dərnəgül" sahəsinin bağlanması tikinti işlərinin aparılması ilə əlaqədardır: "Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 mart 2011-ci ildə imzaladığı "Bakı Metropoliteni Xətlərinin Konseptual İnkişaf Sxemi" və "Bakı Metropoliteninin 2011-2015-ci illərdə inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, Bənövşəyi xəttin "Memar Əcəmi-2" stansiyası 2013-cü ildə istismara verilməlidir. Hazırda həmin xəttin "Memar Əcəmi-2" və Ceyhun Səlimov küçəsində yerləşən "B-3" stansiyaları arasındakı tunellər inşa olunmalıdır. Bu tunel istismarda olan Yaşıl xəttin "Memar Əcəmi" stansiyasının altından keçəcək. Layihəçi və tikintini aparan təşkilatlar inşaat işlərinin risksiz yerinə yetirilməsi və sərnişinlərin təhlükəsizliyini təmin etmək məqsədilə bu istiqamətdə qatarların hərəkətinin dayandırılmasını təklif ediblər. Bu cür üsullar tunel tikintisində geniş tətbiq olunur və bu zaman əsas vəzifə məhz sərnişinlərin təhlükəsizliyidir.

Onu da əlavə edək ki, hazırda Bənövşəyi xəttinin "Avtovağzal" və "Memar Əcəmi-2" stansiyalarının inşası davam etdirilir. Bu iki stansiya arasındakı hər biri 2 min metr olmaqla tunellərin tikintisi müasir tunelqazma qurğularının vasitəsilə tamamlanıb. Hazırda tunelqazma qurğularının "B-3" stansiyası (Ceyhun Səlimov küçəsi) istiqamətində hərəkət etməsi üçün məhz iki xətt arasındakı qeyd olunan hissə qazılaraq keçilməlidir".

Bakı Metropolitenindən bildiriblər ki, inşa olunan "Memar Əcəmi-2" stansiyası Bənövşəyi xətdən Yaşıl xəttin "Memar Əcəmi" stansiyasına keçid funksiyasını yerinə yetirəcək.

## "İrandan verilən qaz hesabına bütün Qarabağda qazlaşdırma işləri aparılır"

"Azərbaycanın işğal altında olan əraziləri ilə bağlı qanun layihəsi hazırlamışıq". APA-nın məlumatına görə, bu barədə Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı ictimai birliyinin rəhbəri Faiq İsmayılov dünən keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, aparılan araşdırmalar onu göstərir ki, Minsk Qrupu üzvləri təmsil etdiyi ölkələr adından Ermənistana xeyli yardım edir və qondarma "respublika"da "quruculuq" işlərinin aparılmasında yaxından iştirak edirlər: "Ermənistan Qarabağı respublika kimi tanıtmaq üçün orada quruculuq işləri aparır, məktəblər tikir. İrandan verilən qaz hesabına bütün Qarabağda qazlaşdırma işləri aparılır. Minsk Qrupunun üzvləri isə Ermənistana xeyli sayda vəsait ayırır. Bütün bunlar qondarma "Dağlıq Qarabağ Respublikası"nın tanınmasına xidmət edir. Belə olan təqdirdə, biz Minsk Qrupunun apardığı danışıqlara etiraz edir və bunun dayandırılmasını tələb edirik".

O qeyd edib ki, Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı qanun qəbulu vacibdir: "Biz Azərbaycanın işğal altında olan əraziləri ilə bağlı qanun layihəsi hazırlamışıq və bunu Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına təqdim etmişik. Təxminən sentyabrda həmin qanun layihəsi şura tərəfindən müzakirəyə çıxarılacaq".

## Erməni katolikosu siyasi qalmaqalla üzləşdi

II QAREGİNƏ "AGENT" DEDİLƏR

"Erməni katolikosu II Qareginin ətrafında siyasi qalmaqal yaranıb. Eçmiədzin kilsəsi dəftərxanasının rəhbəri, yepiskop Arşak Xaçatryanın erməni apostol kilsəsinin Fransa yepaxiyasına və Qərbi Avropada patriarx nümayəndəsi, arxiyepiskop Norvan Zakaryana Katolikosun adından yazdığı məktub dərc edilib". Bu barədə "Joqovurd" qəzeti yazır. Nəşrin yazdığına görə, bu cür məktublar digər yeparxiyalara da göndərilib. Məktublarda yeparxiyalardan həmin ölkələrdə yaşayan Ermənistan vətəndaşları barədə məlumat verilməsi tələb olunur. Özü də II Qaregin yeparxiyalara bu tələbi hökumətdən aldığı məktub əsasında göndərib.

Məqalədə deyilir: "Məktub bir neçə faktı sübut edir: hökumət bu yolla XİN-in və Milli Təhlükəsizlik Xidmətinin funksiyalarını Eçmiədzin kilsəsinin üzərinə qoyub. Eyni zamanda, katolikos bu funksiyaları boynuna götürməklə üstünə "agent" damğası vurub və dövlət orqanlarının öz vəzifələrini yerinə yetirə bilməməsini sübut edir. Halbuki Ermənistan Konstitusiyasının 8.1 maddəsinə əsasən, kilsə dövlətdən ayrılıb. Ermənistanda bütün dəyərləri hörmətdən salmış hakimiyyət indi də müqəddəs məkana — kilsəyə əl atıb. Şərhə ehtiyac yoxdur" (AzərTAc).

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ABŞ Dövlət Departamentinin hesabatına münasibət bildirib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ABŞ Dövlət Departamentinin insan hüquqları üzrə 2011-ci il üçün hesabatının Azərbaycana aid hissəsində qeyd olunanlara münasibət bildirib. Komitədən qəzetimizə daxil olan məlumata görə, hesabatda "Əjdərbəy" məscidinin yenidənqurmadan sonra Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasiminin keçirilməsi, Bakıda dağ yəhudiləri dini icması üçün yeni sinaqoqun istifadəyə verilməsi, katolik kilsəsinin Apostol prefekturasının dövlət qeydiyyatına alınması və bu faktların sənəd müəllifləri tərəfindən dini azadlığa hörmətdə müsbət irəliləyiş kimi qeyd olunması Azərbaycanda dini tolerantlıq və dövlətin dini azadlığın qorunmasına göstərdiyi diqqətin təsdiqidir. Komitə qeyd edir ki, Azərbaycanda dini durumla bağlı real vəziyyət öz əksini tapmayıb və yazılanlar səthi xarakter daşıyıb. Şərhdə bildirilib ki, hesabatın tərtibatında bir sıra hallarda qüsur və qeyri dəqiqliklərə yol verilib, təhlil işi zəif, şablon sxemlərə uyğun və səthi şəkildə həyata keçirilib: "Məsələn "Mədh kilsəsi" dini icmasının yenidən dövlət qeydiyyatına alınmadığı bildirilir, halbuki həmin dini qurum "həyat sözü" dini icması adı ilə Komitədə yenidən qeydiyyatdan keçib. Bundan başqa, "Yehovanın şahidləri" dini icması ilə bağlı hesabatda qeyd edilənlərin əksinə olaraq Dövlət Komitəsi həmin dini icmaya qarşı hansısa iddia qaldırmayıb. Əksinə, dini icma Komitəyə qarşı müxtəlif iddialarla məhkəməyə müraciət edib. Eyni qeyri-obyektivlik dini ədəbiyyatın nəşri ilə bağlı məsələdə də özünü büruzə verib. Dini ədəbiyyatın nəşrinə və yayılmasına məhdudiyyətlər qoyulmasına dair hesabatda yer alan fikirlər ilə bağlı bildiririk ki, bu sahədə hesabat müəlliflərinin fikrini nəinki Komitə, ölkənin dini icmalarının mütləq əksəriyyəti bölüşmür. Belə ki, bu vaxta qədər dini ədəbiyyatla bağlı "Yehovanın şahidləri" dini icması istisna olmaqla Komitəyə heç bir şikayət xarakterli müraciət daxil olmayıb". Komitədən bildiriblər ki, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da bu sahənin tənzimlənməsi ilə bağlı təkmilləşdirmə işləri aparılır və proses gələcəkdə də davam etdiriləcək: "Məsələn, hesabatda da qeyd olunduğu kimi dövlət orqanları ilə dini icmalar arasında bəzi hallarda yaşanan problemlərin bir qismi dini maarifçilik işinin aşağı olmasından qaynaqlanır. Yekun olaraq bildiririk ki, hesabat tərtib olunarkən sadalanan qüsurlara və qeyri-dəqiqliklərə yol verilməməsi üçün sənədin hazırlıq mərhələsində, tam müstəqilliyi qorumaqla göstərilən faktlarla bağlı dövlətin rəsmi rəyi alınması onun keyfiyyətinin artmasına xidmət edə bilər. Qeyri-rəsmi mənbələrlə rəsmi baxışın birgə araşdırılması daha aydın, obyektiv və hərtərəfli təhlillərin aparılmasına şərait yaradardı. Komitə gələcəkdə bu səpkili hesabatların daha obyektiv və əsaslı tərtib edilməsi üçün ABŞ tərəfi ilə əməkdaşlığa hazır olduğunu bildirir".

**S.MÜRVƏTQIZI**

# Azərbaycan dilində ilk qısa İslam Ensiklope diyası işıq üzü görüb

Azərbaycan Dini Araşdırmalar Mərkəzinin təşəbbüsü, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) dəstəyi ilə ilk dəfə olaraq Azərbaycan dilində nəşr olunan yerli "Qısa İslam Ensiklopediyası: İslama dair 1001 termin və xüsusi ad" adlı üç cildlik ensiklopediyanın 1-ci cildinin təqdimatı keçirilib.

Ensiklopediya İslam Konfransı Gənclər Forumunun sifarişi və dəstəyi ilə Dini Araşdırmalar Mərkəzi tərəfindən 2011-ci ildə hazırlanıb. Avrasiya Regional Mərkəzinin rəhbəri Hacı Elçin Əsgərov deyib ki, adıçəkilən ensiklopediya digər ölkələrlə müqayisədə tərcümə yolu ilə deyil, tam şəkildə yenidən işlənib hazırlanıb. Nəşr hazırlanarkən Azərbaycan reallıqlarını, tarixən mövcud olmuş dini ənənələri nəzərə alınaraq yazılıb.

Dini Araşdırmalar Mərkəzinin icraçı direktoru Natiq Rəhimov çıxışında ensiklopediyanın ilkin olaraq 2 cilddə hazırlandığını deyib: "Birinci cilddə yalnız İslama aid əsas terminlər əks olunub, 2-ci cildə isə ilk səhabələrin adları və İslam tarixinə aid bəzi digər xüsusi adlar daxil edilib. Birinci iki cilddə 1001 termin və xüsusi ad əhatə olunub. Sonradan ensiklopediyaya 3-cü cildə əlavə edilib ki, burada İslam tarixində mövcud olan cərəyanlar, fikir məktəbləri, səhabələrdən sonrakı dövrdə yaşamış böyük alimlər haqda məlumat verilir".

Təqdimatda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Elşad İskəndərov çıxış edərək, ensiklopediyanın əhəmiyyətindən söz açıb. E. İskəndərov bu ədəbiyyatın daha çox ölkə daxilində, yerli müəlliflər tərəfindən yazılmasının əhəmiyyətini vurğulayıb. O, dini ictimaiyyəti xaricdə nəşr olunmuş ədəbiyyatın tərcüməsi ilə kifayətlənməməyə, yerli müəllifləri İslam haqda kitab yazmağa dəvət edib.

Millət vəkili Qənirə Paşayeva ensiklopediyanın əhəmiyyətindən danışaraq bu cür tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

**S.MÜRVƏTQIZI**

# Azərbaycan məktəbliləri "Artek"də beynəlxalq festivala qatılıblar

Ölkənin ümumtəhsil müəssisələrinin 15 şagirdi Ukraynada yerləşən "Artek" Beynəlxalq Uşaq Mərkəzində (BUM) keçirilmiş "Dünyanı yaxşılığa doğru dəyişək!" mövzusunda XI beynəlxalq uşaq festivalında iştirak ediblər. Təhsil Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, həmin şagirdlərin 8-i Bakı Avropa Liseyindən, 2-si Bakı Dövlət Universitetinin nəzdindəki Gənc İstedadlar Liseyindən, digər şagirdlər isə "Çağ" Öyrətim İşlətmələri Bakı Özəl Türk Liseyindən, "Ankara məktəbi" məktəb-liseyindən, Bakı şəhərindəki 159 və 167 nömrəli orta məktəblərdən, habelə Masallı rayonundakı "Dəfinə" məktəb-liseyindəndir.

Krım yarımadasının Qurzuf qəsəbəsində yerləşən "Artek" BUM 1925-ci ildən fəaliyyət göstərir. 2001-ci ildən etibarən burada "Dünyanı yaxşılığa doğru dəyişək!" mövzusunda beynəlxalq uşaq festivalı keçirilir. Ötən dövrdə festivalda dünyanın 60 ölkəsindən dörd mindən artıq uşaq iştirak edib. Festivalın əsas məqsədi mədəni inteqrasiya və tolerantlıq, bərabərlik və uşaqlarda fikir azadlığı prinsiplərinin formalaşmasına dəstək verməkdən ibarətdir."Dünyanı yaxşılığa doğru dəyişək!" beynəlxalq uşaq festivalının təşkilatçıları — Ümid və Xeyirxahlıq Ümumukrayna Xeyriyyə Fondu və "Artek" BUM-dur.

Şagirdlərimizin bu festivalda iştirakı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə təşkil olunub. "Ümumdünya Uşaq Millətlər Liqası" beynəlxalq təşkilatı Baş Assambleyasının sessiyaları və "İstedadlar planeti" adlı mədəni proqramın həyata keçirilməsi üzrə iki əsas hissədən ibarət olan festival zamanı Azərbaycanı təmsil edən nümayəndə heyəti bütün sahələrdə fəallıq göstərərək yüksək nəticələr qazanıb. Bakı Avropa Liseyinin X sinif şagirdi Saleh Cəfərov ölkəmizin təmsilçisi kimi ilk dəfə olaraq "Ümumdünya Uşaq Millətlər Liqası" beynəlxalq təşkilatının sədri vəzifəsinə seçilib. O, qarşıdakı bir ildə 54 ölkənin 17 milli koordinatorunun fəaliyyətini tənzimləyəcəkdir.

Bakı Avropa Liseyinin X sinif şagirdi Rafael Hacıbəyli "Ümumdünya Uşaq Millətlər Liqası"nda 17 yaxşı işlər səfirlərindən biri kimi "Sağlam olmaq dəbdədir!" mövzusunun koordinatoru seçilib. O məhz bu sahədə digər 54 ölkə üzrə müvafiq işlərin əlaqələndirilməsini həyata keçirəcəkdir.

Liseyin VIII sinif şagirdi Fidan İsmayılova beynəlxalq uşaq mətbuat mərkəzinin işində fəal iştirakına görə fəxri fərmanla təltif edilib. O, eyni zamanda, 2013-cü ilin mayında Kiyev şəhərində keçiriləcək beynəlxalq jurnalistlər festivalına dəvət olunub.

Azərbaycanlı şagirdlər bir ay ərzində hazırladıqları dörd mahnı və iki rəqs kompozisiyası ilə digər ölkələrdən olan peşəkar kollektivlərlə yanaşı, "İstedadlar planeti" mədəni proqramında çıxış edərək laureatlar sırasında ilk onluğa daxil olublar. İştirakçı ölkə günlərinin keçirilməsi zamanı hazırlanmış materialların sayı nəzərə alınıb və Azərbaycana əlavə olaraq, daha bir "təqdimat çadırı" ayrılıb. Şagirdlərimiz ölkəmizə həsr olunmuş müxtəlif yarış, viktorina və oyunlar təşkil etmişlər. Qaliblərə milli rəmzlərlə zəngin suvenir və həvəsləndirici mükafatlar verilib.

**S.QARAYEVA**

# Gənclər Təşkilatları Milli Şurasının yeni loqosu üçün müsabiqə keçirilir

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (ARGTMŞ) yeni loqotipini müəyyən etmək üçün gənclər arasında müsabiqə elan edib. Şuranın mətbuat xidmətindən verilən məlumata görə, ən kreativ loqotipi təqdim edib, müsabiqənin qalibi olan gənci ipad 3 gözləyir. Müsabiqənin keçirilməsində məqsəd gənclərin kreativ təşəbbüslərinin stimullaşdırılması və təqdim edilən işlər arasından Milli Şuranın yeni loqotipinin seçilməsidir. Müsabiqə nəticəsində ekspert qrupu tərəfindən seçilən ən kreativ loqotip Milli Şuranın rəsmi loqotipi elan olunacaq. Müsabiqə üçün son müraciət tarixi avqustun 25-dir. Müsabiqənin şərtlərinə gəlincə şuradan bildirilib ki, təqdim olunmuş loqotip Azərbaycan Respublikası Gənclər Təşkilatları fəaliyyətini əks etdirməlidir, loqotip Corel Draw və ya Photoshop proqramlarında yığılmalıdır. Təqdim olunmuş loqotip ".JPG" formatında 3 MB-dan çox onlayn həcmdə göndərilməlidir, loqotip qalib elan olunarsa yüksək keyfiyyətli orijinal variantı təhvil verilməlidir. Loqotip əvvəllər istifadə edilməmiş və nəşr edilməmiş olmalıdır, loqotip seçilərsə Milli Şuranın loqotipi kimi istifadə olunacaq.

Qeyd edək ki, müsabiqədə iştirak üçün hazırlanan loqotipi və onun təsvirini parvin.piriyev@nayora.az elektron ünvanına göndərmək kifayətdir.

**S.QARAYEVA**

# Məktəb direktorları olmaq istəyənlər imtahan verəcəklər

Ümumtəhsil məktəblərinə direktorların işə qəbulu ilə bağlı da imtahan keçiriləcək. Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinin müdiri Fərzəli Qədirovun dediyinə görə, hazırda ölkə üzrə 30-dək məktəbdə vakant direktor yeri var və bu yerlər üçün namizədlər tərəfindən sənədlər təqdim edilib: "Vakant direktor yerlərin hamısı regionlar üzrədir. Bu yerlərin tutulması üçün yaxın vaxtlarda imtahan keçiriləcək". F.Qədirov vurğulayıb ki, Azərbaycanda məktəb direktorlarının işə qəbulu artıq 3-cü ildir ki, yeni qaydada həyata keçirilir: "Məktəb direktorlarını Təhsil Nazirliyi təyin və vəzifədən azad edir. Onların namizədliyi rayon təhsil şöbələri tərəfindən irəli sürülür. Sənədlər Təhsil Nazirliyinə daxil olduqdan sonra araşdırılır. Tələblərə cavab verən namizədlər elektron imtahan verirlər". Şöbə müdirinin sözlərinə əsasən, Təhsil Nazirliyi nəzdində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsində keçirilən imtahanda namizədlərə idarəetmə, təhsil qanunvericiliyi və informasiya kommunikasiya bacarıqları üzrə suallar təqdim edilir: "İmtahanları müvəffəqiyyətlə verən namizədlər üçün sonradan nazirin iştirakı ilə müsahibə təşkil edilir. Bundan sonra direktor təyinatı ilə bağlı qərar verilir".

**S.QARAYEVA**

# 398 min 715 istehsalçı dövlətin ayıracağı yardımdan bəhrələnəcək

Dünən kənd təsərrüfatı naziri İsmət Abasovun başçılığı ilə Respublika Komissiyasının iclası keçirilib. Nazirlikdən verilən məlumata görə, iclasda kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi və fiziki şəxslərə hər hektar əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və mühərrik yağlarına görə dövlət tərəfindən büdcə vəsaiti hesabına 40 manat yardım verilməsi, habelə "Aqrolozonq" ASC və digər hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsinin təmin edilməsi məsələlərinə dair müzakirələr aparılıb və qərar qəbul edilib.

İ.Abasov bildirib ki, fermerlər Nazirlər Kabinetinin 15 fevral 2007-ci il qərarı ilə sentyabrın əvvəlinə kimi, dövlətin ayıracağı subsidiyaları əldə edə biləcəklər. Onun sözlərinə görə, ümumilikdə mövcud olan əkin sahələri üçün 1 418 528 min hektar əkin sahəsi üçün 40 manatdan hesablanmış vəsaitlər 56 milyon 441 min 139 manat təşkil edib. Bu vəsait ötən il istifadə olunan vəsaitdən 3 milyon 964 min 845 manat çoxdur.

Nazir qeyd edib ki, komisiyanın qərarına əsasən, bu məbləğin ayrılması üçün təkliflər sabah Maliyyə Nazirliyinə göndəriləcək və orada qərar qəbul olunacaq. Təqribən bir neçə gündən sonra Kapital-Banka köçürüləcək. Bu ayın sonu gələn ayın əvvəlindən fermerlər bankomatlar vasitəsi ilə öz plastik kartları ilə subsidiyalarını (vəsaitlərini) əldə edə biləcəklər. Ümmumilikdə 398 min 715 istehsalçı dövlətin ayıracağı yardımdan bəhrələnəcək.

Fermerlərə gübrələrin güzəştlə satışına görə, dövlət büdcəsindən 2 milyon 284 min 252 manat vəsait ayrılacaq. Nazirin sözlərinə görə, ümumi satılan gübrələrin miqdarı 11 min 878 ton 425 kq təşkil edib. Gübrələrin güzəştlə satışı "Aqrolizinq" MMC, "Mikro AZFeed" MMC, "AQRONUR" MMC və "Sərxan-2" MMC tərəfindən həyata keçirilib. Sözügedən vəsait gübrələrin güzəştlə satışı həyata keçirən qurumlara köçürüləcək.

**BƏXTİYAR**

# Suriyadakı Azərbaycan səfirliyi təhlükəsizlik məqsədilə ölkəni tərk edib

Azərbaycan səfirliyinin əməkdaşları və səfir yaranmış vəziyyətlə əlaqədar təhlükəsizlik məqsədilə Suriyanı tərk ediblər. Azərbaycan Xarici İşlər Nazirliyindən verilən məlumata görə, respublikamızın Suriyada olan 60 vətəndaşı da bu ölkəni tərk edib. Suriyada indiki hökumətlə müxalifət arasında toqquşmalar bir ildən çoxdur ki, ara vermir. BMT-nin məlumatına görə, münaqişə qurbanlarının sayı artıq 16 min nəfəri keçib. BMT-nin və Ərəb Dövlətləri Liqasının Suriya üzrə xüsusi nümayəndəsi — avqustun axırlarında istefaya gedəcək Kofi Annan inanır ki, Suriyanı hələ milli fəlakətdən xilas etmək olar. Onun sözlərinə görə bu, bir sıra dövlətlərdən və ən əvvəl BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən və Suriya ilə qonşu olan ölkələrdən siyasi qətiyyət tələb edir. Suriya böhranının nizama salınmasına dair onun təklif etdiyi "Annan planı" hökumətin və müxalifətin bir sıra öhdəlikləri yerinə yetirməsini, o cümlədən BMT-nin xüsusi mexanizminin səmərəli nəzarəti altında silahlı zorakılığa son qoyulmasını, zərərçəkənlərə humanitar yardım göstərilməsini və Suriyadaxili siyasi dialoqun başlanmasını nəzərdə tutur.

**S.MÜRVƏTQIZI**

# Ötən ay 3297 vergi hüquqpozması qeydə alınıb

2012-ci ilin iyul ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən ödəyicilərinin aşkarlanması, valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 3297 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib. Vergilər Nazirliyindən verilən məlumata görə, 1589 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 394 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu və valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satıldığı və ya dəyişdirildiyi, 119 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 501 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilib.

Operativ nəzarət tədbirləri zamanı 547 vergi ödəyicisi tərəfindən 548 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 120 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 27 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 367 ədəd mal olduğu aşkarlanıb.

Aşkar olunan faktlarla bağlı qanunamüvafiq tədbirlər görülüb.

**BƏXTİYAR**

# DSMF yanvar–iyul ayında qeyri–büdcə sektoru üzrə proqnozu 108, 5 faiz icra edib

2012-ci ilin yanvar-iyul aylarında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri 1517,4 mln. manat təşkil edib ki, bu da 2011-ci ilin müvafiq dövrünə nisbətən 416,9 mln. manat və ya 37,9 faiz çoxdur. DSMF-dən verilən məlumat görə, hesabat dövründə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2011-ci ilin müvafiq dövrünə nisbətən 14,6 faiz və ya 100,1 mln. manat artaraq 785,0 mln. manat təşkil edib.

Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 58,9 faizi və ya 462,3 mln. manatı qeyri-büdcə sektorunun payına düşür. Həmin sektorun ödədiyi məcburi dövlət sosial sığorta haqlarının məbləği əvvəlki ilə nisbətən 17,2 faiz və ya 67,9 mln. manat artıb, proqnoz isə 108,5 faiz icra olunub. Bu dövrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və torpaq pay mülkiyyətçilərinin sosial sığortaya cəlb edilməsi gücləndirilib. Nəticədə, fiziki şəxslər üzrə daxilolmalar 11,8 faiz, torpaq pay mülkiyyətçilərindən daxilolmalar isə 17,8 faiz artıb.

Yanvar-iyul aylarında büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 322,7 mln. manat təşkil edib. Həmin təşkilatların ödədiyi məcburi dövlət sosial sığorta haqları əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,1 faiz və ya 32,2 mln. manat artıb.

Sair gəlirlər (sanatoriya-kurort yollayışlarının qismən dəyərinin ödənilməsi və s.) üzrə daxilolmalar 4,1 mln. manat təşkil edib.

Daxilolmaların səviyyəsi pensiya və müavinətlərin vaxtında maliyyələşdirilməsinə imkan verib.

Cari ilin yanvar-iyul aylarında Fondun xərcləri 1421,7 mln. manat olub. Hesabat dövründə pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün Fond tərəfindən 1395,5 mln. manat vəsait yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 361,1 mln. manat və ya 34,9 faiz çoxdur. Pensiya xərcləri 2011-ci ilin müvafiq dövrünə nisbətən 36 faiz və ya 360,4 mln. manat artaraq 1362,9 mln. manat təşkil edib. Yanvar-iyul aylarında əhaliyə 32,6 mln. manat məbləğində müavinət ödənilib.

DSMF-nin digər xərcləri 26,2 mln. manat təşkil edib ki, bu da 2011-ci ilin müvafiq dövrünün göstəricisindən 1,0 mln. manat və ya 3,9 faiz çoxdur.

**BƏXTİYAR**

# Dünya Bankının regional direktoru Maliyyə Nazirliyində olub

Maliyyə naziri Samir Şərifovla Dünya Bankının Cənubi Qafqaz üzrə yeni təyin olunmuş regional direktoru Henri Keralinin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Nazirlikdən verilən məlumata görə, tanışlıq xarakteri daşıyan görüşdə Azərbaycandakı sosial-iqtisadi inkişaf, ölkənin davamlı iqtisadi artım və diversifikasiyası, Dünya Bankı tərəfindən Azərbaycanda maliyyələşdirilən layihələrin, o cümlədən kənd təsərrüfatı, səhiyyə, infrastruktur və digər sahələri əhatə edən layihələrin hazırki icra vəziyyəti və ölkə üzrə iqtisadi inkişaf strategiyasının müxtəlif istiqamətləri müzakirə olunub.

Görüşdə tərəflər arasında əməkdaşlığın yaxşı səviyyədə olduğu vurğulanıb, Azərbaycanda son illər əldə edilən uğurlar və gələcəkdə görüləcək işlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**BƏXTİYAR**

# Zaqatala Dövlət Təbiət Qoruğunda yanğın olub

Avqustun 7-də 22:30 radələrində Zaqatala Dövlət Təbiət Qoruğunun Qaraçay sahəsinin 05 saylı dolayının 54 saylı kvartalının ərazisində ətrafdan keçən elektrik xəttində baş vermiş qısaqapanma nəticəsində yanğın baş verib. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, yanğın 0,05 hektar sahəni əhatə edib. Yanğın Zaqatala Dövlət Təbiət Qoruğunun və Fövqəladə Hallar Nazirliyinin Balakən rayon Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən qısa müddət ərzində söndürülüb və Qoruğun ərazisinə ciddi ziyan dəyməsinin qarşısı alınıb.

Yanğın zamanı Qoruğun ərazisində yalnız təbii ot örtüyünə ziyan dəyib.

**BƏXTİYAR**

# Ali təhsili olmayanların redaktorluq etməsinin qarşısı alınacaq

Azərbaycanda ali təhsili olmayanların və texniki təhsilli şəxslərin qəzetlərdə redaktorluq etməsinin qarşısının alınacağı gözlənilir. Mətbuat Şurasının sədri Əflatun Amaşov "Trend"ə bildirib ki, bu məsələ Prezident İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı haqqında" imzaladığı sərəncamın icrasını həyata keçirmək məqsədilə yaradılan AMEA-nın işçi qrupunun hazırladığı təkliflər planında öz yerini tapıb. Onun sözlərinə görə, redaktor kimi humanitar sahədə təhsili olan, Azərbaycan dilinin qaydalarını səlis bilən şəxslər işləməlidir. Ə.Amaşov qəzetlərə stilist redaktorların cəlb olunmasını da vacib sayıb və bu məsələnin də öz həllini tapacağına ümidvar olduğunu bildirib. O qeyd edib ki, təkliflər sırasında ədəbi dil normalarının pozulmasının qarşısını almaq məqsədi ilə Mətbuat Şurası və Milli Televiziya və Radio Şurası nəzdində dilçi mütəxəsislərdən ibarət müvafiq Ekspert şuralarının yaradılması da yer alıb.

İşçi qrupu tərəfindən hazırlanan təkliflər dil qaydalarını mütəmadi pozan qəzetlər üçün müəyyən ictimai qınaqla yanaşı, hər hansı cərimələrin təyin olunmasını da özündə əks etdirir.

Təkliflər arasında KİV nümayəndələrinin və o cümlədən teleradio aparıcılarının, diktorların əbədi dil normalarına dair bilgi səviyyəsini müəyyən edən monitorinqlərin keçirilməsi, həmçinin qəzetlərin dili ilə bağlı tez-tez monitorinqlərin təşkil edilməsi yer alıb.Dilçi alimlər, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutunda KİV-lərin dili ilə məşğul olan şöbənin yaradılmasını da təklif edirlər.

# Xırdalanda "UNİBANK"-ın filialı fəaliyyətə başladı

Bu gündən etibarən "Unibank" ASC-nin yeni açdığı daha bir filial Abşeron rayonun Xırdalan şəhərində fəaliyyətə başlayıb. Mehdi Hüseynzadə küçəsi, 6 (http://unibank.az/az/aboutbank/branches/other/map/108/) ünvanında yerləşən yeni filial Xırdalan şəhəri ilə bərabər Biləcəri, Qobu, Masazır, Hökməli və digər yaxınlıqda olan qəsəbələrin sakinlərinə pərakəndə xidmətləri göstərəcək.

Bankın yeni xidmət nöqtəsi pərakəndə kreditləşdirilmə və konkret olaraq nağd istehlak kreditlərin, avtokreditlər, güzəştli dövrə malik kredit kartlarının verilməsində fəal olmağa hazırdır. Xüsusi diqqət biznes sahibləri və fərdi sahibkarlara fayda gətirə biləcək mikrokredit alətlərinə də verilir. Bundan başqa fərdi müştərilər üçün həmçinin müddətli əmanətlər, pul köçürmələri, plastik kartlarının sifarişi, kommunal ödənişlər, nağd valyuta ilə əməliyyatları daxil edən geniş məhsul xətti təklif olunur.

Xırdalan filialı müasir üslubda qurulub, "Cash-in" cihazı, POS-terminllar və bankomatla təchiz edilib, onun bütün əməkdaşları isə Bankın baş ofisində ixtisaslaşdırılmış hazırlıq keçiblər.

Xatırladaq ki, filial şəbəkəsinin genişləndirilməsi "Unibank" strategiyasının əsas istiqamətlərindən biridir. Hal-hazırda Bankınxidmət şəbəkəsi 11 regional və 18 paytaxt filiallarından ibarətdir və 223 mindən çox müştəriyə müxtəlif növ bank xidmətləri göstərir.

# Eks-spiker adına təqaüd təsis olunacaq

## MİLLİ MƏCLİSİN SABİQ SƏDRİ MURTUZ ƏLƏSGƏROV DÜNƏN SON MƏNZİLƏ YOLA SALINDI

Dünən M.Şəhriyar adına Mədəniyyət Mərkəzində Milli Məclisin sabiq spikeri, professor Murtuz Ələsgərovla vida mərasimi keçirilib. Vida mərasimində təhsil naziri Misir Mərdanov Murtuz Ələsgərovun Azərbaycanda hüquq məktəbinin yaradıcılarından biri olduğunu bildirib. Onun sözlərinə görə, Azərbaycanın ilk Konstitusiyasının hazırlanmasında Ələsgərovun müstəsna xidmətləri olub. Təhsil naziri qeyd edib ki, M. Ələsgərovun fəaliyyətinə Azərbaycan rəhbərliyi böyük qiymət verib, o, Prezident təqaüdünə layiq görülüb. Hakim Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini və icra katibi Əli Əhmədov çıxışında bildirib ki, M. Ələsgərovun bütün həyatı Azərbaycanın inkişafına, müstəqilliyinin qurulmasına həsr olunub: “Ötən əsrin 90-cı illərində onun ziyalı mövqeyinə ehtiyac var idi. Murtuz Ələsgərovun Heydər Əliyev ideyalarının həyata keçirilməsində böyük xidmətləri olub”. O, Murtuz Ələsgərovun parlament ənənələrinin formalaşmasında müstəsna xidmətlərini qeyd edib.



Milli Məclisin (MM) sədr müavini Valeh Ələsgərov çıxışında bildirib ki,M. Ələsgərov dərin savadı, alicənablığı ilə seçilən əsl Azərbaycan ziyalısı olub: “Müstəqil Azərbaycanı dünyanın qabaqcıl ölkələri sırasında görmək onun ən böyük arzusu idi”. O, həmçinin qeyd edib ki,M. Ələsgərovun parlamentə rəhbərlik etdiyi illər ölkənin qanunverici orqanının fəaliyyətinin gərgin mərhələsi olub.

Ali Məhkəmənin sədri Ramiz Rzayev bildirib ki,M. Ələsgərov Azəraycanın müstəqilliyinin möhkəmləndirilməsində, hüquqi bazanın yaradılmasında ümummilli lider Heydər Əliyevin ən yaxın məsləkdaşı olub. R.Rzayev M.Ələsgərovun uzun illər BDU-da rektor işlədiyini vurğulayaraq qeyd edib ki, hazırda məhkəmə hakimiyyətində işləyənlərin əksəriyyəti onun tələbələridir. “Azərbaycanın əməkdar hüquqşünası, Milli Məclisin sabiq spikeri Murtuz Ələsgərovun adı əbədiləşdiriləcək”. Bunu vida mərasimində çıxışında Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov qeyd edib və bildirib ki, onun adının əbədiləşdirilməsi məqsədilə müvafiq qərar qəbul olunub. A.Məhərrəmovun sözlərinə görə, M. Ələsgərov adına təqaüd təsis olunacaq, alimin 85 illiyi münasibətilə beynəlxalq konfrans keçiriləcək. Həmçinin, universitetdə alimin adına xüsusi auditoriya yaradılacaq. Sistematik olaraq, alimin doğum günləri ərəfəsində beynəlxalq elmi konfranslar keçiriləcək.

Prezident Administrasiyasının (PA) hüquq — mühafizə orqanları ilə iş şöbəsinin müdiri, mərhumun oğlu Fuad Ələsgərov isə bildirib ki, atasının həyat yolu ailə üzvlərinin hər biri üçün örnəkdir.O, atasının mərdlik və prinsipiallığı ilə seçildiyini qeyd edərək vurğulayıb ki, hər zaman Heydər Əliyev ideyalarına sadiq qalıb: “Murtuz Ələsgərov Heydər Əliyevin sadiq silahdaşı olub”. F. Ələsgərov eyni zamanda Prezidentə başsağlığına görə minnətdarlığını bildirib.

Qeyd edək ki, vida mərasimində mərhumun ailə üzvləri, yaxınları, Milli Məclisin üzvləri, ombudsman Elmira Süleymanova, hökumət təmsilçiləri, ictimaiyyət nümayəndələri, xarici diplomatiya korpusunun nümayəndələri iştirak ediblər.

Mərasim başa çatdıqdan sonra mərhum birinci Fəxri Xiyabanda dəfn olunub.

**Kamil HƏMZƏOĞLU**

# *Əli Əhmədov:* “Bizim müxalifətlə ciddi fikir ayrılığımız var”

“Bizim birmənalı mövqeyimiz bundan ibarətdir ki, Azərbaycanda “ siyasi məhbus ”lar yoxdur”. Bunu mətbuata açıqlamasında millət vəkili, Yeni Azərbaycan Partiyasının (YAP) icra katibi və sədr müavini Əli Əhmədov dilə gətirib. Onun dediyinə görə, hakim partiya olan YAP-ın, o cümlədən, mövcud iqidarın da bu məsələ ilə bağlı mövqeyi hər kəsə çoxdan bəllidir. Ə.Əhmədov eyni zamanda onu da qeyd edib ki, bu yöndə müxtəlif interpretasiyalar mövcuddur, yəni, Azərbaycan müxalifətinin bəzi nümayəndələrinin interpretasiyası bütövlükdə “siyasi məhbus” anlayışını ehtiva edən kriteriyalar çərçivəsindən kənara çıxdığından, bu barədə hakim partiya üzvlərinin müxalif kəsimlə ciddi fikir ayrılıqları var: “Bu məsələ barəsində bizim müxalifətlə ciddi fikir ayrılığımız mövcuddur. Ona görə də onların “ siyasi məhbus ” adlandırdığı adamları biz siyasi məhbus saymırıq. Ona görə yox ki, biz bunu saymaq istəmirik, ona görə ki, bu insanlar hər hansı siyasi əqidəsinə, bütövlükdə əqidəsinə görə həbs olunmayıblar. Onların əməllərində cinayət tərkibi olduğuna görə həbs olunan insanları “siyasi məhbus” kateqoriyasına aid etməsini isə biz ümumiyyətlə, hüquqa hörmətsizlik hesab edirik”-deyə,Ə.Əhmədov sonda sözlərinə əlavə edib.



**Kamil HƏMZƏOĞLU**

# *Rüstəm Məmmədov:* "Azərbaycanın Xəzərdə radarlar yerləşdirməsi ölkənin müdafiə qabiliyyətini möhkəmləndirəcək"

“Azərbaycanın Xəzər sahilinə radarlar yerləşdirməsi ilk növbədə də ölkənin müdafiə qabiliyyətini artırması, təhlükəsizliyini təmin etməsi və müdafiə qabiliyyətini möhkəmləndirmək istəyindən irəli gəlir. Heç kim bu prosesə qarşı çıxmamalıdır”.Belə bir açıqlama ilə politoloq, Xəzər problemləri üzrə ekspert Rüstəm Məmmədov çıxış edib. Qeyd edək ki, ABŞ Dövlət Departamentinin bir neçə gün əvvəl 2011-ci il ərzində dünyada terrorla mübarizəyə dair açıqladığı hesabatında Azərbaycan hökumətinin Xəzər dənizi sahilində ölkənin hərbi dəniz donanması, dəniz sərhədçiləri və Dövlət Sərhəd Xidməti tərəfindən istifadə olunacaq 7 radarın yerləşdirilməsi məsuliyyətini öz üzərinə götürdüyünü bildirib. R.Məmmədov Xəzəryanı ölkələrin fəal şəkildə hərbi təyinatlı gəmi inşa etməsi və almasına da toxunub. O deyib ki, Xəzərin hərbiləşdirilməsi prosesi çoxdan başlayıb. Bu prosesdə daha çox öz hərbi dəniz qüvvələrini yaradan və möhkəmləndirən Türkmənistan və Qazaxıstan fəaldır. Politoloqun fikrincə, Xəzərin hərbiləşdirilməsi iki şeylə nəticələnə bilər: “Bu Xəzəryanı ölkələr arasında dinc əməkdaşlığı möhkəmləndirə və ya müharibəyə gətirib çıxara bilər”. Xəzərdə hərbiləşdirilmə qlobal proseslərlə bağlılığına gəlincə, politoloq deyib ki, şübhəsiz ki, qlobal proseslər böyük sürətlə baş verir: “Qlobal oyunçuların beynəlxalq arenada olan hər biri, xüsusilə də, Rusiya, ABŞ, Avropa İttifaqı dünyada yaranan vəziyyətdən narazıdır. Bu tərəflərdən hər biri enerji ehtiyatlarının cəmləşdiyi regionlara iddia edirlər. Bu oyunçular dövlətlər arasında yaranan qüvvələr balansını sarsıtmaqla öz məqsədlərinə çatmaq üçün mübarizə aparırlar. Təbii ki, belə bir vəziyyət regionda gərginlik yaradır. Ona görə, bu oyunçulardan biri iki Xəzəryanı dövlət arasında hərbi münaqişəyə təhrik edə bilər. Belə vəziyyət öz növbəsində silahlanma yarışına gətirib çıxarır”. Onun sözlərinə görə, Xəzəryanı ölkələrdən Azərbaycan və Türkmənistan münaqişəyə cəlb edilə bilər: “Çünki həmin qlobal oyunçular dövri olaraq Azərbaycan və Türkmənistanı münaqişəyə təhrik edirlər. Lakin bu oyunçular Xəzərdə Azərbaycan və Türkmənistanı qarşılaşdırmağa nail olmayacaqlar. Bundan əlavə, Xəzərdə münaqişəyə İran da səbəb ola bilər. Çünki bu ölkə dənizlə bağlı müəyyən iddialara malikdir. Bununla belə, İran ətrafında yaranan beynəlxalq vəziyyəti nəzərə alsaq hələ ki, xüsusilə də Azərbaycanla dənizlə münaqişə yaratmaq qərarına gəlməz”. R.Məmmədov hesab edir ki, Xəzərdə potensial olaraq öz hərbi mövcudluğunu təmin etmək iqtidarında olan beynəlxalq qüvvələrin heç biri Xəzərdə üçüncü qüvvəyə çevrilməyəcək: “Düzdür, ABŞ belə bir güc ola bilər. Lakin Amerika Administrasiyası da bu regiondakı münaqişələrdə iştiraka razı olmaz. Çox güman ki, bu qüvvələr Xəzəryanı ölkələri bir-birinə qarşı qoyacaqlar. Ona görə, mən Xəzərdə üçüncü tərəfin iştirakını istisna edirəm”. Politoloqa görə, Xəzərin statusu hələ uzun müddət qeyri-müəyyən olaraq qalacaq. Xəzəryanı ölkələr öz təhlükəsizliklərini təmin etməyincə bu vəziyyət davam edəcək.

**PƏRVANƏ**

# *Faiq İsmayılov:* “Minsk qrupunun həmsədrləri danışıqlar prosesini bilərəkdən uzadırlar”

“Dağlıq Qarabağ probleminin həll edilməsində Minsk qrupunun həmsədrlərinin rolu bizi qane etmir”. Bu barədə Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin rəhbəri Faiq İsmayılov “Müharibədən zərər çəkən vətəndaşların sosial və mədəni hüquqlarının Avropa Məhkəməsində müdafiəsi, eləcə də problemin həlli ilə bağlı digər tədbirlərin beynəlxalq səviyyədə təbliği” adlı layihə çərçivəsində dəyirmi masada deyib. Qeyd edək ki, layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilir. Layihə çərçivəsində baş tutan tədbir “Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Minsk qrupunun apardığı “sülh” danışıqlarının məqsədi, qondarma “Dağlıq Qarabağ Respublikası” Beynəlxalq hüququn subyektinə çevrilməsinə şərait yaratmaqdır” mövzusu ətrafında geniş diskussiyalar aparılıb. Dəyirmi masada çıxış edən ictimai birliyin sədri Faiq İsmayılov bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həllində ikili mövqe nümayiş etdirən Minsk qrupunun həmsədrləri, bu qrupun vasitəçiliyi ilə Ermənistan və Azərbaycan Respublikaları arasında apardıqları sülh danışıqlarının indiki vəziyyəti nə müharibədən zərər çəkən vətəndaşları, nə də bütövlükdə Azərbaycan xalqını qane etmir. Sədr qeyd edib ki, bu üç həmsədr ölkə danışıqlar prosesini bilərəkdən uzadırlar. “Danışıqların uzanması problemin daha da dərinləşməsinə və bu problemin həllinin “mümkünsüzlüyünə” şərait yaradır. Belə bir şəraitdə həmsədrlər psixoloji cəhətdən Azərbaycan xalqına Qarabağ probleminin həllində daha başqa variantın qalmadığını və məğlubiyyətlə barışacaqlarını nümayiş etdirir” — deyə, F.İsmayılov sözlərinə əlavə edib.

**PƏRVANƏ**

# Azərbaycan politoloqları Suriyada baş verən prosesləri necə dəyərləndirir?

Siyasi icmalçılar Suriyada baş verənlərin bölgənin siyasi xəritəsində ciddi dəyişiklik yaradacağı qənaətində olsalar da, bu prosesin Azərbaycana təsiri məsələsində eyni fikri bölüşmür. Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov APA-ya deyib ki, Suriyada faktiki vətəndaş müharibəsi gedir və ölkə parçalanma təhlükəsi ilə üz-üzədir: “Bəşər Əsədin öldürülməsi, hətta ölkədən qaçması belə prosesin radikal şəkildə dəyişilməsinə səbəb olmayacaq. Suriyada İraqdan da gərgin vəziyyət yarana bilər”. R. Musabəyovun fikrincə, Suriyada baş verənlər Türkiyə üçün təhlükə ocağı formalaşdıra bilər, İran isə bölgədə sonuncu müttəfiqini itirməkdədir: “Ancaq bütün bunların Azərbaycana hər hansı təsirinin olacağını düşünmürəm. Suriyanın parçalanması ilə ölkədə kürd, ələvi anklavları yarana bilər. Bu anklavlar qeyri-rəsmi şəkildə yaranacaq”. Politoloq baş verənlərdə din amilinin olmadığını da qeyd edib: “Çünki Suriyada Bəşər Əsəd hakimiyyətinə qarşı olan ölkələrin hamısı müsəlman dövlətləridir. Əksinə bütpərəst Çin, xristian Rusiya Suriyada Bəşər Əsədin hakimiyyətdə qalmasına dəstək verir. Baş verənləri Qərbin müsəlmanlara qarşı siyasəti kimi dəyərləndirmək isə yanlışdır”.

Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri, politoloq Araz Əlizadə Suriyada gedən vətəndaş müharibəsinin nə demokratiyaya, nə gözəl gələcəyin qurulmasına heç bir aidiyyəti olmadığını söyləyib: “Suriya layihəsi ABŞ və müttəfiqlərinin bütün neft ölkələrini özlərinə tabe etdirmək prosesinin tərkib hissəsidir. Necə ki, Liviyada Qəddafi ilə yerli xalq yox, muzdlu terrorçular döyüşürdü, eyni vəziyyət Suriyada da yaradılıb. Türkiyə isə əvvəlcə Liviyadakı hadisələrdən, indi isə Suriyada baş verənlərdən istifadə edərək, regionda liderlik arzusundadır. Ancaq bunu bacarmayacaq. Türkiyə Liviyada qarşılaşdığı vəziyyətlə burada da qarşılaşacaq və neftdən heç bir pay əldə etməyəcək. Türkiyə Qərbin imkanlarından və hazırkı vəziyyətdən istifadə edib, bölgədə öz nüfuzunu artırmaq istəyir”. A. Əlizadə Türkiyə hökumətini bu prosesin qarşısını almamaqda da ittiham edib: “Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan özünü islamçı adlandırır, lakin müsəlmanların qırılmasından mənfəət əldə etmək istəyir”. O qeyd edib ki, Azərbaycan xalqı ayıq olmalı və bu cür təxribatlara getməməlidir.

Xəzər Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Vəfa Quluzadə Suriya ilə əlaqədar vəziyyətin artıq aydın olduğu, Bəşər Əsəd rejiminin hakimiyyətdən yıxılacağı və burada yeni sistemin qurulacağı qənaətindədir: O, Bəşər Əsədin xalqın və beynəlxalq ictimaiyyətin təzyiqinə davam gətirməsinin səbəbkarının Rusiya olduğunu da deyib: “Rusiya Suriyada hərbi baza saxlayır və rus hərbi mütəxəssislər bu ölkədə çalışırlar. Əslində Suriya Rusiyanın yaxın Şərqdəki sonuncu dayağıdır və Bəşər Əsəd üçün bu müharibəni idarə edən də Rusiyadır. Ona qarşı çıxan qüvvələr isə ərəb dünyasına və NATO-ya arxalanır”.

Bu prosesin Azərbaycan təsiri haqda danışan V. Quluzadə deyib ki, Azərbaycan regionda gedən müharibələrdən bacardığı qədər uzaq durmalı, öz daxili sabitliyini saxlamalı və düzgün seçimini ortaya qoymalı, NATO-ya və Qərbə inteqrasiyasını davam etdirməlidir.

V. Quluzadə qeyd edib ki, Rusiya artıq Şərqdən də çıxmalıdır: “Üçüncü dünya müharibəsi bitməyib və bu müharibnin birinci mərhələsi SSRİ-nin çökməsi, ikinci mərhələsi Rusiyanın bütün müttəfiqlərinin NATO-ya daxil olması və Rusiyanın dayağı olan ölkələrdən çıxardılması oldu. Sonrakı mərhələ isə Rusiyanın özüdür”. Politoloq deyib ki, Rusiyadakı xalqlar artıq imperiyada yox, normal demokratik bir ölkədə yaşamaq istəyir: “Rusiyada təxminən 1917-ci ildir. Yəni oktyabr inqilabı ərəfəsindədir. Rus mətbuatı yazır ki, Rusiya inqilaba hamilədir. Mən bu fikirlərə önəm verirəm. Rusiyanın çökməsi Ermənistanın da məhvinə səbəb olacaq. Bununla da paralel Dağlıq Qarabağ məsələsi öz həllini tapacaq”.

Politoloq Qabil Hüseynli isə Suriyada vətəndaş müharibəsinin bu həddə çatmasında Rusiya və Çini ittiham edib. Onun sözlərinə görə, əgər Rusiya və Çin BMT Təhlükəsizlik Şurasının Suriya ilə bağlı ciddi qətnamə qəbul etməsinə maneə yaratmasaydı, bu gün həmin ölkədə kütləvi insan tələfatı halları baş verməzdi: “Bəşər Əsəd başqa dövlətlərin diktəsi ilə hərəkət etdi. Amma indi o, zor gücünə olsa da, hakimiyyətdən uzaqlaşdırılacaq. Lakin Bəşər Əsəd özündən sonra ölkəni ciddi tənəzzül içərisində qoyub gedəcək”. Q. Hüseynli artıq Suriya hökumətinin siyasi konfiqurasiyasının formalaşdırılması istiqamətində müzakirələrin aparıldığını da söyləyib: “Ərəb baharı” Suriyada məntiqi sonluğuna çatır”.

Q. Hüseynlinin fikrincə, Rusiya Bəşər Əsədə sığınacaq verməyəcək: “İranın isə belə bir addım atacağı daha inandırıcıdır”.

# *Bahar Muradova:* "İstənilən tövsiyəni dinləməyə hazırıq"

“Biz ATƏT-lə, Avropa Şurası ilə, eləcə də bir çox digər beynəlxalq təşkilatlarla birgə işləməkdə, qarşılıqlı əlaqələri təkmilləşdirməkdə və bu təşkilatların, həmçinin, Avropa standartlarını Azərbaycana gətirməkdə özümüz maraqlıyıq”. Bunu mətbuata açıqlamasında Milli Məclis (MM) sədrinin müavini Bahar Muradova ATƏT və onun müvafiq qurumlarının seçki qanunvericiliyi, o cümlədən qarşıdan gələn prezident seçkiləri ilə bağlı tövsiyələrinin Azərbaycan tərəfindən nəzərə alınıb-alınmayacağı məsələsinə münasibətini bildirərkən dilə gətirib.Amma vitse-spikerin dediyinə görə, biri var öhdəliklər, biri də var tövsiyələr. B. Muradova qeyd edib ki, Azərbaycan tərəfi də hər zaman istənilən tövsiyəni dinləyir və yenə dinləməyə hazırdır: “ Biz istənilən tövsiyəni dinləyirik, obyektiv olanını qəbul edirik, obyektiv olmayanını, Azərbaycan üçün yaramayanını isə izah edirik ki, nəyə görə qəbul etmirik. O ki qaldı seçkilərlə əlaqədar tövsiyələrə, Azərbaycanın bu məsələdə bu və ya digər beynəlxalq təşkilatla heç bir problemi yoxdur və olmayıb. Seçki qanunvericiliyi bizdə müntəzəm olaraq təkmilləşdirilir, bu təkmilləşdirmələr zamanı da Azərbaycanın siyasi reallıqları nəzərə alınır. Eləcə də, ATƏT-lə, onun müvafiq qurumları, Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ilə seçki məsələlərinin müzakirəsi yönümündə əlaqələrimiz yüksək səviyyədədir və hesab edirəm ki, qarşıdan gələn növbəti prezident seçkilərində istər beynəlxalq müşahidənin təşkil olunmasında, istərsə seçki qanunvericiliyinin müvafiq tələblərinə baxmaqda da, əgər zaman, şərait tələb edərsə, heç bir problem yoxdur. Bunlar yalnız tövsiyələrdir. Tövsiyələrsə öhdəliklər və tələb demək deyil”.



**KAMİL**

# Baş nazirin müavini Əli Həsənov Henri Kerali ilə görüşüb

Azərbaycanın baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Dünya Bankının Cənubi Qafqaz üzrə yeni təyin olunmuş regional direktoru Henri Kerali ilə görüşüb. Ə.Həsənov H.Keralini yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edərək Azərbaycan hökuməti ilə Dünya Bankı arasında əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib. Baş nazirin müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən, ölkəmizdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində görülən işlərdən söz açıb: “Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi — Dağlıq Qarabağ və ona bitişik yeddi rayon işğal olunub, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələrinə Ermənistan məhəl qoymur”. Ə.Həsənov Azərbaycanın münaqişənin beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinin tərəfdarı olduğunu bildirib.

Baş nazirin müavini Azərbaycanın Dünya Bankı ilə əməkdaşlıq etdiyi müddətdə kifayət qədər yaxşı təcrübənin toplandığını diqqətə çatdırıb: “Təkcə qaçqın və məcburi köçkünlərin rifahının yaxşılaşdırılması istiqamətində Dünya Bankı ilə bir neçə uğurlu layihə həyata keçirilib və bu işlər davam etdirilməkdədir”.

Ə.Həsənov dövlətimizin maliyyə imkanlarının getdikcə daha da artmasına baxmayaraq, etibarlı və təcrübəli beynəlxalq maliyyə təsisatları ilə kredit əməkdaşlığının davam etdiyini qeyd edib: “Bu, həm yaranmış əməkdaşlığın möhkəmlənməsinin, həm də tərəflərin bir-birinə yüksək etimadının göstəricisidir”. Baş nazirin müavini vurğulayıb ki, işğal altındakı ərazilərimiz azad edildikdən sonra orada genişmiqyaslı bərpa işləri aparılmalıdır: “ Bu baxımdan təcrübəli beynəlxalq qurumların köməyinə ehtiyac yaranacaq”.

H.Kerali Azərbaycan hökumətinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Dünya Bankının proqramlarının reallaşmasına göstərdiyi köməyi yüksək qiymətləndirib. Dünya Bankının rəsmisi qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərin bütün dünya üçün örnək olduğunu bildirib. O, Azərbaycanın bu sahədə gördüyü işlər və həyata keçirdiyi uğurlu tədbirlər ilə bağlı beynəlxalq konfransın keçirilməsini təklif edib.

H.Kerali Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini qeyd edib.Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunaraq müştərək layihələr və tədbirlər haqqında fikir mübadiləsi aparılıb.

**S.MÜRVƏTQIZI**

# Amerikalı demokrat senator Xocalı soyqırımının tanınması kampaniyasına dəstək verib

ABŞ-ın Şimali Karolina ştatını təmsil edən senator Key Heyqan Amerikada fəaliyyət göstərən diaspor təşkilatlarının Xocalı soyqırımını tanınması ilə bağlı məktub kampaniyasına dəstəyini bildirib. Azərbaycan və türk diaspor təşkilatlarının üzvlərinə ünvanladığı məktubda senator Xocalı faciəsinin Konqres səviyyəsində soyqırım kimi tanınması ilə bağlı məsələnin onun diqqətinə çatdırılmasına görə razılığını ifadə edib. “1992-ci ildə fevralın 25-dən 26-a keçən gecə Azərbaycanın Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğını baş verib. Bu, kütləvi qırğın həm də Xocalı soyqırımı adlandırılır”-deyə senator qeyd edib. Senator ABŞ hökumətinin mülki vətəndşalara qarşı kütləvi qətliamların qarşısının alınması ilə bağlı kursunun müəyyən edilməsinin vacibliyini vurğulayıb. O, 2010-cu ildə soyqırım və mülki vətəndaşların kütləvi şəkildə qətlinin qarşısının alınmasının ABŞ-ın milli maraqlarında olduğuna dair Konrqesin 71 saylı qətnaməsinin ABŞ Senatına təqdim edildiyini bildirib. Həmin ilin dekabr ayında Senatda qəbul edilmiş qətnamə bu məqsədlərə nail olmaq üçün Obama administrasiyasını fəaliyyət göstərməyə çağırır. Senator Heyqan bildirib ki, Senatda Xocalı qətliamının tanınmasına və Ermənistanı bu faciəyə, habelə Dağlıq Qarabağ müharibəsi dövrü digər zorakılıq aktlarına görə məsuliyyəti üzərinə götürməsinə çağıran xüsusi bir qanunvericilik layihəsi olmasa da, Senatın qəbul etdiyi 71 saylı qətnamə soyqırım və kütləvi qırğınların qınanması və əvvəllər kütləvi şəkildə qətlə yetirilmiş insanların xatirəsinin anılması kimi bir borcun olduğunu xatırlatmaq istiqamətində mühüm bir addımdır.

Qeyd edək ki, demokrat senator Key Heyqan 12 ildir ABŞ Senatında Şimali Karolina ştatını təmsil edir.

Xocalıda və Srebrenitsada baş vermiş kütləvi qırğınların tanınması ilə bağlı məktub kampaniyası ABŞ-da və Kanadada fəaliyyət göstərən Amerika-Azərbaycan Şurası və Pax Turcica institutunun təşəbbüsü, habelə Amerika-Azərbaycan Cəmiyyəti, Türk-Amerika Assosiasiyalar Birliyi və Türk-Amerika Assosiasiyalar Federasiyasının dəstəyi ilə keçirilib.

**PƏRVANƏ**

**“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə**

# Plüralizm və müasir media: reallıqlara və perspektivlərə baxış

**Demokratiya və aşkarlığın mühüm vasitəsi hesab olunan kütləvi informasiya vasitələrində fikir, söz və məlumat azadlığının yetərincə işıqlandırılması həmişə cəmiyyəti yaxından maraqlandırır. Plüralizm, informasiya azadlığı, ölkəmizdə medianın müxtəlif sferalarının ümumi vəziyyəti, Azərbaycan mətbuatının hazırkı problemləri, inkişaf meylləri və perspektivləri, jurnalistikamızın hazırkı durumu ilə bağlı suallar, demək olar ki, hər kəsin maraq dairəsinə daxildir. Bu kimi məsələlərlə bağlı Bakı Dövlət Universitetinin kafedra müdiri, İctimai Televiziya və Radio Yayım Şurasının sədri, professor Cahangir Məmmədli ilə söhbətləşdik. Görkəmli alimin sözügedən mövzulara fərqli və maraqlı yanaşmalarını oxucularımıza təqdim edirik.**

## PROFESSOR CAHANGİR MƏMMƏDLİ İLƏ SÖHBƏT









***(Əvvəli 3 avqust sayımızda)***

***— Söhbətimizdə qeyd elədiniz ki, televiziya mətbuat sahələri içərisində daha öndədir, onlayn jurnalistikaya uduza bilməz...***

— Print mətbuatından fərqli olaraq televiziyanın işi bir az başqadı, daha asandı. Azərbaycanda televiziyalar azdı. Deyə bilmərəm niyə azdır? Amma arzu edərdim ki, ölkəmizdə ən azı otuza yaxın televiziya kanalı fəaliyyət göstərsin, ölkə miqyasında yayımlansın, reklam bazarı, rəqabət genişlənsin. İstərdim ki, televiziyalar daha obyektiv, yaradıcı, operativ olsunlar. Həm də heç bizim ağlımıza gəlməyən verilişlər versinlər. Hansısa informasiyanı bir telekanal verməyəndə, o birisi versin. Telekanallarımız arasında rəqabət zəifdir. Reklam bölgüsü də o qədər narahatlıq doğurmur. Amma telekanalların sayı artsa, reklam bazarı uğrunda ciddi rəqabət gedəcək, bu da inkişafa zəmin yaradacaq. Amma bütün bunlara baxmayaraq televiziya kanallarının informasiyası daha etibarlıdır. Çünki televiziyalar müəyyən qədər idarə olunur. Televiziyalar yalan danışmaqdan, dezinformasiya yaymaqdan çəkinir, qanuna daha çox əməl edirlər. Misal üçün götürək ki, Azərbaycan Televiziyasını — AzTV-ni. Bəzən deyirlər ki, AzTV rəsmi xəbərlərə çox yer verir. Azərbaycan Televiziyası dövlətçilik ənənələrini qoruyan, Azərbaycan Prezidentinin iş gününü təqdim edən, rəsmi xəbərlərə daha çox yer verən televiziya kanalıdır. Buna mütəxəssis olaraq da təəccüblənmək bir az savadsızlıq olardı. Çünki bu televiziyanın informasiya siyasəti bundan ibarətdir. Ya gərək bu televiziya olmasın, bu televiziya mövcuddursa, belə də olmalıdır. Keçək İctimai Televiziyaya. İctimai Televiziyanın bütün informasiya siyasəti ictimai marağa söykənir. Yəni o bütünlüklə bütöv cəmiyyətin televiziyasıdır və rəsmi informasiyaya az yer verməlidir. AzTV-ni İctimai Televiziya fərqləndirəndə birincidə rəsmi xəbərə 10-15 dəqiqə yer verilirsə, ikincidə bu, 1-2 dəqiqədən artıq gedə bilməz. Amma bəzən bunlara da irad tuturlar ki, rəsmi xəbərə çox yer verilir. Amma bir Azərbaycan vətəndaşı kimi mən televiziyada rəsmi xəbərləri görmək istəyirəm; kimə ad verilib, prezident hansı fərmanları, sərəncamları imzalayıb və sair. Adını çəkdiyim hər iki telekanalın informasiya siyasəti Azərbaycan dövlətçiliyini qorumaqdır. Bu telekanallardan tamaşaçı, partiya, qrup gileyləri də ola bilər. Bütün bunları bir kənara qoymalıyıq. Bu iki televiziya Azərbaycan dövlətçiliyini və milli dəyərləri qorumalıdır. İctimai Televiziya reytinq arxasınca qaçmamalıdır və qaçmır. Yəni televiziyaya dövlət tərəfindən müəyyən kömək olunur. Buna heç büdcə yox, dövlət tərəfindən yardım deyək. Bu müəyyən kömək nəticəsində İctimai Televiziya fəaliyyət göstərir. Amma oraya heç bir kənar müdaxilə olunmur. Tutaq ki, partiya liderlərinin gileyləri var ki, onları efirə vermirlər və sair. Bu gün İctimai Televiziya artıq bu kimi məsələlərə də diqqətlə yanaşır və yanaşmalıdır da. Amma prinsipcə iki böyük məsələ var. İctimai Televiziyanın ən böyük vəzifəsi maarifçilik ideyalarını həyata keçirməkdir. Bütün dünyada belədir. Məsələn, vaxtilə ABŞ-da özəl telekanallara pulsuz lisenziya verməyin əvəzində həftədə bir-iki dəfə proqram cədvəlinə maarifləndirici verilişlər salmağı tapşırdılar. Özəl telekanallar bundan yararlandılar- pulsuz lisenziyanı aldılar, maarifçilik verilişləri təşkil etdilər, amma gördülər ki, bu verilişlərə maraq yoxdur. Bir az keçmiş bunları bir kənara atıb dedilər ki, sizin pulsuz lisenziyanız bizə lazım deyil, biz sensasiyalı materiallar, əyləncəli verilişlər verəcəyik, yəni maaarifçilik siyasətindən uzaqlaşdılar. Avropa və Amerikada ictimai televiziya məhz bu səbəblərdən meydana gəldi-reklam bazarı uğrunda mübarizə aparan telekanallara qarşı alternativ bir kanal ortaya qoydular. Azərbaycan dövlətinin, ölkə prezidentinin iradəsi ilə və Azərbaycan cəmiyyətinin sosial sifarişi ilə bizdə də İctimai Televiziya yarandı və hazırda maarifçilik prinsipləri ilə işləyir. İctimai Televiziyada cəmiyyətin bütün təbəqələri təmsil olunmalıdır, bu televiziya da mümkün qədər buna çalışır.

***— Müsahibələrinizin birində qeyd eləmişdiniz ki, kaş ki, Azərbaycanda qəzetlərin sayı az olaydı. İndi isə televiziya kanallarının çox olmasını istədiyinizi bildirirsiniz. Bu maraqlı fərqləndirməni necə izah edərdiniz?***

— İndi qəzetlər o qədər çoxdur, o qədər adam qəzet istehsalı ilə məşğuldur ki, insan jurnalistikadan yavaş-yavaş bezmək istəyir. Çox təhlükəli bir vəziyyət yaranır. Qəzet bolluğu həddindən artıqdır. Jurnalistikaya dəxli olmayan adamlar ki qəzet buraxırlar, bundan ehtiyatlanıram. Əgər hazırda Azərbaycanda bu qədər yox, 30 qəzet olsaydı, reklam bazarına girmələri də asanlaşardı, onların maliyyə qaynaqları reklamdan gələrdi, özləri özlərini təmin edərdilər. Satışları normal olardı. Amma indi vərəqə tipində hərə bir qəzet buraxır. Mən buna görə çox böyük narahatlıq keçirirəm. Televiziyanın çox olmasının isə elə bir narahatçılığı yoxdur. Mən o rəqabətin arzusundayam. Bəlkə televiziya hələ də bütün informasiya vasitələrindən öndədir. Onun informasiyasına bir az ürəkgenişliyi ilə yanaşmaq lazımdır. Məsələn, çap mətbuatında vəziyyət belədir ki, tirajı yuxarı olmayan qəzetə reklam vermirlər. Tirajın böyük olması üçün isə gərək peşəkar olasan. Televiziyanın proqramları da bu tipdədir. Televiziyada peşəkar jurnalistin apardığı, hazırladığı proqramda reklam baha olur. Bir var Mir Şahinin proqramında, bir də var kiminsə verilişində reklam qiyməti. Çünki Mir Şahin verilişi elə peşəkarcasına hazırlayır ki, onun proqramına hamı baxır. Bax, bu mənada reklam bazarı uğrunda mübarizə jurnalisti namuslu, dəqiq, qərəzsiz və peşəkar olmağa vadar edir. Peşəkar olmayan da şantaja, sensasiyaya gedir. Bu mənada teleproqramları say çoxluğu və keyfiyyət üstünlüyü lazımdır ki, rəqabət bazarı qaydaya düşsün.

***— Hazırda televiziyaların maarifçilik və xəbər vermək missiyaları arxa plana keçməsinə, əyləncə verilişlərinin efirləri “zəbt etməsinə” münasibətiniz necədir?***

— Bununla bağlı ən rəsmi qaydada, akademik səviyyəsində söhbət açıldı. Müzakirələr aparıldı, müəyyən nəticələr oldu. Belə məqamlar, tədbirlər vaxtaşırı olmalıdır. Xüsusilə özəl kanallarda şou, əyləncə proqramları daha çox reklam bazarına girə bilirsə, onları qınamaq olmaz. Həqiqətən reytinq yığırlar. Digər proqramlarda peşəkarlıq çatmadığına görə digər proqramlarla reklam bazarına girə bilməyən kanallar əyləncə verilişləri ilə bunu bacarırlar. Amma baxın, Allahın Moskvasında elə proqramlar var ki, saatlarla tamaşaçını ekran arxasında oturmağa vadar edir. Bu yaxınlarda Sarkozinin getməsi, Ollandın prezidentliyə gəlməsi ilə bağlı bir tok-şouya baxdım. 4 nəfər ekspertin iştirakı ilə veriliş hazırlamışdılar. Daha bizdəki ekspertlər kimi yox, hərəsinin öz mövqeyi, öz müstəqil düşüncə tərzi olan sanballı, obyektiv ekspertlərdən danışıram. Bütün gecəni-4 saat müddətində Fransada seçkilər prosesini verir, camaatın alqışlarını, Ollandın çıxışını, Sarkozinin vida nitqini yayımlayır, canlı yayım gedir, ekspertlər də hadisələri şərh və müzakirə edirdilər. Çox ciddi məsələyə həsr olunmuş həmin proqramda reklamın qiyməti də çox baha olub. Demirəm, biz də Fransa ilə işləyək. Amma bizim elə problemlərimiz var ki, onları peşəkarlıqla efirdə verə bilsələr, şou proqramlar onların yanında öləziyər. Əlbəttə, indi telekanalların böyük əksəriyyətində əyləncə funksiyası daha əvvələ keçib. Amma bütün telekanallarda yaxşı verilişlər də var. Kanalların xəbərlər proqramlarında xeyli irəliləmələr var, formatlarını genişləndiriblər, aparıcılar müəyyən dərəcədə formalaşmağa başlayıblar, peşəkarlaşıblar. İrəliləyişlər çoxdur.

**(Ardı var)**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Elm yolunda inamlı addımlarla

***İsmayıl MƏMMƏDLİ***
**filologiya elmləri doktoru, professor**

Biologiya elmləri doktoru Eldar Novruz oğlu Novruzov 30 may 1942-ci ildə Naxçıvan MR Kəngərli (keçmiş Şərur) rayonunun Qarabağlar kəndində anadan olmuş, orta təhsilini Qarabağlar kənd orta məktəbində almışdır. 1961-ci ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq fakültəsini, 1969-cu ildə Gəncə Dövlət Pedoqoji İnstitutunun (indiki GDU) biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1970-ci ildə AMEA-nın Botanika İnstitutunun əyani aspiranturasına daxil olmuş, 1975-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək biologiya elmləri namizədi alimlik, 2007-ci ildə doktorluq dissertasiyası müdafiə edərək biologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. 1987-ci ildə SSRİ Ali Attestasiya Komissiyası E.N.Novruzova “biokimya” ixtisası üzrə baş elmi işçi (dosent) elmi rütbəsini vermişdir.

Eldar Novruzovun 1973-cü ildə aspiranturanı bitirdikdən sonrakı bütün elmi fəaliyyəti Botanika İnstitutu ilə bağlı olmuşdur. Burada o, kiçik elmi işçi vəzifəsindən baş elmi işçi vəzifəsinə kimi yüksəlmiş və hazırda Bitki ehtiyatları şöbəsinə rəhbərlik edir.

Eldar Novruzov keçən əsrin 70-ci illərin axırlarından Azərbaycanda yayılmış çaytikanı bitkisini öyrənməyə başlamışdır. Çaytikanı bitkilər aləmində müalicə və istifadə spektrinin genişliyinə görə mühüm yerlərdən birini tutan, müxtəlif ixtisas sahibi olan botaniklərin, kimyaçıların, texnoloqların, əczaçıların və digərlərinin geniş tədqiqat obyektinə çevrilmiş bitkidir. Aparılmış tədqiqatlar nəticəsində Azərbaycan florasında yayılmış çaytikanın sənaye miqyasında istifadəsi üçün — əhəmiyyətli olan formalar müəyyən etmiş, onların kimyəvi tərkibini öyrənmişdir.

E.Novruzovun çaytikanının öyrənilməsinə dair tədqiqatların nəticələri yüksək reytinqli “Bitki ehtiyatları”, (Leninqrad) “Təbii birləşmələr kimyası”, (Daşkənd), “Beynəlxalq Ekologiya” (Hindistan) jurnallarında, “Çaytikanı çoxcəhətli möcüzəvi bitkidir” (Dehli, 2001), “Çaytikanının kimyası və farmakologiyası” (Dehli, 2006 kitablarında çap edilmişdir. Kanada, Almaniya, Hindistan, Pakistan, Çin, Rusiyada çağrılmış çaytikanın müxtəlif problemlərinin həllinə həsr edilmiş konqres və konfranslarda məruzələrlə çıxış etmişdir. Çaytikanının tədqiqi sahəsində apardığı tədqiqatlar dünya elmi-ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyi üçün E.Novruzov 2003-cü ildə “Beynəlxalq çaytikanının tədqiqi və tətbiqi assosiasiyasının direktorlar şurasının üzvü və Azərbaycan üzrə kordinatoru seçilmişdir. Hazırda da çaytikanı müxtəlif aspektdə Eldar müəllimin aspirantları tərəfindən tədqiq edilir, fundamental və təcrübi əhəmiyyəti olan yeni nəticələr alınır.

Eldar Novruzovun apardığı son tədqiqatların nəticəsi Azərbaycan florasında yayılmış 61 fəsiləyə, 125 cinsə aid 550 növün tərkibinin bu maddələrlə zəngin olmasını aşkar etməyə imkan vermişdir. Bu bitkilərdən 236 növ antosian, 343 növ karotinoid, 367 növ flavanoid, 12 növ qlikoalkaloid, 11 növ saponin, 15 növ betasian saxlayan bitki ilk dəfə onun tərəfindən müəyyən edilmişdir.

Tərkibində BFM saxlayan bitkilərin kompleks öyrənilməsi nəticəsində E.Novruzov bir sıra fundamental və praktiki əhəmiyyət kəsb edən mühüm nəticələr almışdır:

E.Novruzovun apardığı işlər bitki sistematikasında, filogenetik sistemin yaradılmasında da olduqca əhəmiyyətlidir. O Azərbaycanda kimyəvi taksonomiyanın əsasını qoymuşdur. Onun bitkilərin tərkibində olan bioloji fəal maddələr antosianlar, flavanoidlər, katexinlər, karotinoidlər, qlikoalkaloidlərin kəmiyyət və keyfiyyətcə öyrənilməsinə dair tədqiqatlarının nəticələri növ mənsubiyyəti çətin müəyyən edilən polimorf növlərin təyinində bu maddələrdən kimyəvi taksonomik vahid kimi istifadə edilməsini eksperimentlərlə göstərmişdir.

Onun bitkilərin tərkibində olan maddələrlə onların təbii-tarixi inkişaf prosesində qazandığı əlamətlər arasındakı korrelyativ qanunauyğunluq olmasına dair elmi nəticələri filogenetik sistemin qurulmasında olduqca əhəmiyyətlidir. Eldar müəllim müəyyən etmişdir ki, təkamülün müxtəlif pillələrində duran bitkilərin anatomik-morfoloji quruluşlarında mürəkkəblənmə getdiyi kimi, onların tərkibində olan maddələrin quruluşlarında da mürəkkəbləşmə getmişdir. O bunu flavanoid, antosian maddələrinin quruluşunun mürəkkəbləşməsi timsalında eksperimental yolla göstərmişdir.

E.Novruzov tərəfindən aparılan tədqiqatlar nəticəsində əldə etdiyi elmi yeniliklər “Piqmentı reproduktivnıx orqanov rasteniy i ix znaçenie” monoqrafiyasında öz əksini tapmışdır. O, öz eksperimentlərinin nəticəsini və dünya ədəbiyyatında olan məlumatları analitik təhlil edərək, antosian, flavanoid, karotinoidlərin bitkilər aləmində yayılma qanunauyğunluğu, bitki orqanlarında sintezi yolları, onların sintezinə təsir edən biotik və abiotik amillər haqqında yeni elmi müddəalar irəli sürmüşdür.

E.Novruzov təbii bitki sərvətlərindən səmərəli istifadə etmək üçün mühüm əhəmiyyət kəsb edən, botanika elminin cavan sahələrindən olan bitki ehtiyatşunaslığının problemləri həllinə dair qiymətli tədqiqatlar aparmışdır. O, Azərbaycan florasında geniş yayılmış tibbi, yeyinti və digər sahələrdə sənaye miqyasında istifadə edilə biləcək bitkilərin bioloji, istifadə ehtiyatını, onların məhsuldarlığını



və məhsuldarlığa təsir edən ekoloji amilləri araşdırmasında da geniş tədqiqat işləri aparmış və aldığı nəticələr keçmiş SSRİ-nin və indi Rusiyanın bu sahədə aparıcı jurnalı olan “Bitki ehtiyatları” (Rusiya EA Botanika) jurnalında çap etdirmişdir.

Eldar müəllimin apardığı tədqiqatlar nəticəsində Azərbaycan florasında 100 növdən çox yağlı bitki aşkar edilmişdir. Texnoloji araşdırmalarla bu bitkilərdən yağlarının alınmasının yeni metodları hazırlanmışdır. Onun bu metodları da ixtira kimi qiymətləndirilmiş və müəlliflik şəhadətnaməsi verilmişdir.

E.Novruzovun BFM alınma texnologiyalarının nəticələri dəfələrlə respublika, ümumittifaq və beynəlxalq sərgilərdə nümayiş etdirilərək mükafat almış, Azərbaycan EA və SSRİ EA mühüm nəticələri sırasına daxil edilmişdir.

E.Novruzov güclü ekspermentatordu. Elmi-tədqiqat işinin, ekspermentlərinin aparılması işinə xüsusi diqqət yetirir, alınmış elmi nəticələri nüfuzlu jurnallarda çap etdirir, doktor olmağı önəmə çəkmirdi. Onun elmi tədqiqatları ruhlandıran, çap edilmiş əsərlərinin hələ özü almamışdan xarici alimlər tərəfindən həmin əsərlərin onlara göndərilməsini, öz işlərində onun metodlarından və aldığı nəticələrdən geniş şəkildə istifadə etmək istədikləri vaxtlar olur. Onun elə bir elmi məqaləsi yoxdur ki, ona xarici alimlər müraciət etməsinlər. Elə vaxtlar olub ki, Eldar müəllimin bəzi xaricdə çap edilən əsərlərinin çap edilməsinin elmi ədəbiyyatını izləyərkən xarici alimlərin əsərlərində onun əsərinə istinad edildiyini görəndən sonra bilmişdir.

Azərbaycan florasında yayılmış 550-dən çox növlərə bioloji fəal maddələrin kəmiyyət və keyfiyyət tərkibinin tədqiqatçısı və əksəriyyətinin ilk müəllifi olaraq fitokimya, biokimya, biotexnologiya və bitki ehtiyatşünaslığının nəzəri və təcrübi əhəmiyyət kəsb edən problemlərinin həllinə həsr edilmiş elmi işləriniz bu sahədə yeni istiqamət olub, bitki taksonlarının kimyəvi müəyyən edilməsində, filogenetik sistemin dəqiqləşdirilməsində mühüm rola malikdir. Məhsuldar elmi yaradıcılığınız sayəsində əldə etdiyiniz uğurlu nəticələr elm aləminin diqqətini cəlb edə və tez-tez istinad edilən 150-dən çox əsərlərdə, o cümlədən bir monoqrafiya, 17 müəlliflik şəhadətnaməsi, 3 Texniki şərt və 3 Texnoloji instruksiyada öz əksini tapmış, bir sıra beynəlxalq simpozium və konqresslərdə təqdim olunmuşdur.

Müdrüklük dövrünə qədəm qoymuş E.Novruzov tükənməz enerji və yaradıcılıq imkanına malik dünya şöhrətli bir alim və elm təşkilatçısıdır. Onun yaxından rəhbərliyi altında 3 namizədlik dissertasiyası müdafiə olunmuş və hazırda 2 doktoranta, 3 dissertant və 1 doktorluq işinə rəhbərdir. Onun elmindən, zəkasından, ideyalarından gənc kadrlarımız, dünya alimləri hələ çox bəhrələnəcəklər.

E.Novruzov fəal elmi-təşkilatı iş aparır. Botanika İnstitutunun Elmi Şurasının, Botanika İnstitutunun nəzdində fəaliyyət göstərən Doktorluq Dissertasiyası Şurasının və Respublika Elmi Tədqiqatların təşkili və əlaqələndirilməsi şurasının biologiya elmləri (Botanika, Biokimya) üzrə problem şurasının üzvü, Doktorluq Dissertasiyası nəzdindəki Seminar Şurasının sədridir.

Eldar müəllim insanlarla münasibətdə təvazökar və alicənablığı, ehtiyacı olanlara kömək etmək keyfiyyəti və dostlarına, yoldaşlarına münasibətdə səmimiliyi sevən insandır. O, elmi və digər tədbirlərdə çox lakonik şəkildə obyektiv fikir söyləməyi bacaran, aydın düşüncə təfəkkürlü, ziyalı və son dərəcə tələbkar müəllim və bir o qədər də diqqətcil, səmimi, təmkinlidir.

Eldar müəllim, biz birlikdə 70-ci illərdə aspirant dostlar olmuşuq, birgə təhsil almışıq. O dövrdə sizin gənclik illərində də botanika sahəsində perspektivli araşdırmalar aparmaq gərəkli və faydalılığına biz hamımız — aspirant yoldaşların ürəkdən inanırdıq. Bu gün artıq Siz ömrünüzün 70-ci baharındasınız. Sizi bu tarixi gün 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik, Sizə can sağlığı, əzizlərinizlə birlikdə sevinc dolu, mənalı günlər keçirməyinizi, elmi-pedaqoji və təşkilatı fəaliyyətinizdə bitib tükənməyən uğurlarla elmin şərəfli yollarında daha uca zirvələrə doğru hər zaman ön sıralarda olmağınızı arzu-

Azərbaycan Türk Sənayeçi və İşadamları Beynəlxalq Cəmiyyəti (TÜSİAB) ictimai —siyasi xadim, tanınmış hüquqşünas —alim, Milli Məclisin keçmiş spikeri, hüquq, elm və təhsilin inkişafına böyük töhfələr verən, Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasında, ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan mübarizələrdə, Azərbaycan Türkiyə arasındakı dostluq və bərabərlik əlaqələrinin möhkəmlənməsində böyük xidmətləri olan Murtuz Ələsgərovun vəfatından kədərləndiyini bildirir, mərhuma Allahdan rəhmət, ailəsinə, dost və yaxınlarına başsağlığı verir.

## TƏBRİK



Səmanı 11 yaşı tamam olması münasibətilə nənələri Raya, Dilarə, atası Eldəniz, anası Şəhla, qardaşı Vəli təbrik edirlər. Həyatı səma kimi təmiz olsun. Daim əzizlərini sevindirsin.

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**
**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov
Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2697
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA və “OLAYLAR”ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.